Azadlıq Radiosu

AZƏRBAYCAN XƏBƏRLƏRİ

# Azərbaycanda vergi cinayətləri 50 faizdən çox artıb

1 dəqiqə öncə




Azərbaycan vergi yükünə görə regionda birincidir

2025-ci ildə Azərbaycanda vergi hüquqpozmaları ilə bağlı 2 min 131 cinayət işi icraatda olub.

Bu barədə Dövlət Vergi Xidmətinin avqustun 11-də açıqladığı illik hesabatda bildirilir. **Bu göstərici 2024-cü illə müqayisədə 53.9 faiz artıb.**

Hesabat dövründə başa çatmış cinayət işləri üzrə vurulmuş ziyan 202.7 milyon manat təşkil edib. Həmin cinayət işləri üzrə dövlət büdcəsinə 156 milyon manat ödənilib.

Ötən il başlanmış cinayət işlərinin əksəriyyəti vergi, işsizlikdən sığorta, icbari tibbi sığorta və ya məcburi dövlət sosial sığorta haqlarının ödənilməsindən yayınma halları ilə

bağlı olub.

İl ərzində yeddi şəxs barəsində həbs-qətimkan tədbiri seçilib.

## Vergi borcu da artır

Bu il iyulun 1-nə Azərbaycanda vergi borcları 4 milyard 50.4 milyon manat təşkil edib.

Bu barədə Maliyyə Nazirliyinin bugünlərdə yayılan illik hesabatında bildirilir. Sənədə əsasən, **bu, yanvarın 1-i ilə müqayisədə 741.6 milyon manat və yaxud 22.4 faiz çoxdur.**

Son bir ildə isə ölkədə vergi borcları 556.7 milyon manat və yaxud 15.9 faiz artıb.

Müstəqil iqtisadçılar bütün bunları iqtisadi durğunluq və hökumətin yanlış vergi siyasəti ilə izah edirlər. Bu ildən bir sıra sahələrdə vergi və rüsumlar artırılıb. Eləcə də qeyri-dövlət sektorunda çalışanlar gəlir vergisinə cəlb edilib.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur